
FƏRİDƏ HACIYEVA
GÖYLƏR
PƏNAHIM MƏNİM

Milli Kitabxana

FƏRİDƏ HACIYEVA

# GÖYLƏR PƏNAHIM MƏNİM

"ADİLOĞLU" nəşriyyatı
BAKI-2003

*Milli Kitabxana*

Redaktor **_VAQİF YUSİFLİ_**

$H\frac{5002568974}{121-2002}$ sifarişlə

©F. HACIYEVA

# KÖVRƏK DUYĞULAR, ZƏRİF HİSSLƏR

Fəridə Hacıyevanın bu şerlər kitabının da ilk oxucularından biri mən oldum. Yenə də onun zərif, incə, kövrək şair qəlbinin döyüntülərini eşitdim. Sevindim ki, Fəridə xanım ilk yazılarından üzü bəri-sonuncu hesab etdiyi şerlərinəcən özünə, öz təbiətinə, şair sözünə sadiq qalır. Yenə də Fəridə xanım sevgidən yazır, bu sevginin ülviliyindən söz açır, ayrılıq, hicran və bu məşəqqətdən doğan hissləri şerə çevirir. Yenə də Fəridə xanım yaşadığı dövrün onda doğurduğu ağrı-acılardan, dünyanın gardişinin, fələyin çərxinin dəyişməsindən narahat olduğunu bildirir. "Qəm mənim içimdədi - bu misra Fəridə xanımın bir çox minor motivli şerlərinin dilini anlamağa kömək edir.

*Duman gəlib üstünə*
*Dözəmmirəm tüstünə,*
*Dərd çəkilib üstünə,*
*A çadır şəhərciyim.*

Bu misralar içində qəm yaşadan bir şairin təkcə fərdi, şəxsi, məhrəm duyğularla deyil, həm də elin, obanın, xalqın, vətənin qəhrin çəkən bir yurddaşımızın ürəyindən keçən duyğulardır. Nəinki ürəyindən keçir, həm də bu duyğular onun taleyinin yaşantılarıdır. Çünki Qarabağ müharibəsində Fəridə xanımın da əzizləri, doğmaları vuruşub, yaralanıb ya şəhid olublar. O çadırlarda yaşayan yurddaşlarımız içində yəqin Fəridə xanımın da əzizləri, qohumla-

rı var.

Fəridə xanımın şair dünyası həzinlik, kövrəklik və incəlik üstündə köklənib. Onun şerlərində ağlar bir ürəyin sızıltıları göyüm-göyümdür, göz yaşlarında zamanın dərdi, kədəri yuva salıb.

O, tanrıdan hünər istəyir ki, söz üstə ilmələnsin, oda-alova dönsün.

*Bənövşəm, sənə qurban*
*Solmusan mənim kimi.*

Gözəl misralardır və mən həmişə şer oxuyanda bu misraları xatırlaycağam. Və mən həmişə Fəridə xanımın şerlərini əlimə alanda, ola bilsin, ən gözəl şerlərindən bir az zəiflik qaralayanda bax, bu misralar yadıma düşəcək. Mən Fəridə xanıma könül xoşluğu, gözəl şair taleyi arzulayıram.

**Vaqif YUSİFLİ**

## TƏMİZLİK VƏ GÖZƏLLİK POEZİYASI

Qədim yunanlarda Sapfo adlı qadın şairə olmuşdur. Dünyanın görkəmli ədəbiyyatşünasları, filosofları onu qadın kimi düşünüb, yazan şair kimi dəyərləndirmişdir. Qadın kimi düşünüb, duyub qadın kimi də yazmaq mədəniyyəti dünyanın kişilər tərəfindən görünməyən o biri üzünün açılması, aşkarlanması deməkdir. Anna Axmatova, Mariya Svetayeva, bizim poeziyamızda Mirvarid xanım Dilbazi, Nigar xanım Rəfibəyli, Mədinə xanım Gülgün qadın İncəliyinin, xanım zərifliyinin söz ifadəsi kimi ədəbiyyat tarixinə daxil olmuşlar. Mətbuatdan izlədiyim və şerlərini böyük maraqla oxuduğum Fəridə xanım Hacıyevanın şerləri, məhz qadın kimi düşünüb, qadın kimi yazmağın örnəyi kimi ədəbiyyatımıza gəlmişdir.

Bəlkə də ədəbiyyatda cins bölgüsü aparmaq doğru deyil.

"Aslanın erkəyi, dişisi olmaz", deyimi ilə xalqımız qəhrəmanlıq, mərdlik dəyərini cinsə ayırmağa qarşı olmuşdur. Ancaq bir həqiqəti unutmaq olmaz ki, qadın həssaslığın, zərifliyin meyarıdır. Qadın səsi, qadın sözü, qadın sevgisi məhz qadına aiddir. Qadın təkrarsızlığı poetik dünya üçün də təkrarsızlıq potensialı deməkdir.

Fəridə xanımın müxtəlif mövzulu, müxtəlif məzmunlu və formalı şerləri dünyaya qadın baxışının poetik ifadəsi kimi qiymətlidir. Səmimiyyət, təbii həyəcan, ana təmkini, bacı istiqanlılığı, vətəndaşlıq qüruru bu şerlərin qanıma-canıma hopub.

Dərgahına qurban olum, əfəndim,
Hər daşına diz qoymağa izn ver,
İmanım sən, inancım sən, əfəndim,
Dərd versən də qəbulumdu, gizlin ver.

**("Əfəndim")**

- poetik parçası nə qədər təbiidirsə:
gəl
yağışın altındaca
qoşalaşaq.
Yağış yağsın.
Biz də elə
yaşıllaşaq.
Bax beləcə,
pöhrələnsin
içimizdə,
min arzular.

**("İlham pərim")**

- misraları qəlbin dərinliklərində yaşayan duyğuları:

Dilin sözümə həsrət,
Dağım, düzümə həsrət,
Sözün düzünə həsrət,
Kömək ol, mənə, vətən.

**("Vətən")**

- kəlmələrində vətən, yurd sevgisi qubar, məhəbbət, ilham dolu bir ürəklə vəsf olunmuşdur.

Bacı-qardaş istəyi, məhəbbəti poeziyasız da dünyanın sübut olunmuş istəyi, məhəbbətidir. Şairə bu təbii məhəbbətə də ay işığına bənzər qəmli, qüssəli bir işıqla dilə gətirir.

Vallah, yetim qalan mənəm,
Hey gəzirəm tapammıram.
Qayğı dolu nəfəsini,
Bir kimsədə duyammıram.
**("Gəl görüşək")**

Bədii sözün böyüklüyü, ülviliyi ondadır ki, şairin kədərini, dərdini sən öz kədərin, dərdin bilirsən və o duyğuları şairlə birgə yaşayırsan.

Ağlamaqdan qəlpə-qəlpə sınmışam,
Ağlamaram, mən də belə dəliyəm.
**("Vətənsiz")**

- misralan doğma vətəni düşmən tərəfindən işğal olunan qaçqın-köçkün əhval-ruhiyyəsini ifadə edir. Hər gün yuxusunda doğma çinarın, böyüdüyü evi, toz qonmuş qəmli yolları, yetim kəhrizin yetim sularını görən şairin dərdi, kədəri insanidir, insani olduğu qədər də mətindir, sərt və barışmazdır.

Ocaq ilk növbədə ananındır. Ocaq itkisi ilk növbədə ana faciəsidir. Şairə bu faciəni yalnız kədərin dili ilə vermir, ümid və inamla vətən həsrətini dilə gətirir. Fəridə xanımın şerlərində Natəvanın Qarabağ ətirli nəfəsi duyu-

lur. Bu nəfəs "Gözlərim yoluna bir iz salacaq", "Odum-alovum yox, bir közüm qalıb", "Ümmandayam, öz gəmim yox", "Bu qar da, şaxta da ömrün payıdı", "Razıyam ölüb, ölüb, Mən yenidən doğulam"... misralarından oxucu ürəyinə axır, axıb getdiyi yerlərə gözəllik, inam, saflıq, səmimiyyət aparır.

İstər qadın poeziyası olsun, istər də kişi. Əsl poeziya ürək poeziyası, könül səsidir.

Bu səsi dünyamıza gətirən, dilimizdə canlandıran Fəridə xanıma zərif duyğular üçün təşəkkür edir, ona həmişə qadın əlinə, qadın baxışına, qadın ürəyinə möhtac olan böyük poeziya yolunla yeni-yeni uğurlar diləyirik.

**Kamil Vəli Nəriman oğlu**
**professor, filologiya elmləri doktoru**

## LƏYAQƏTLİ QADIN, GÖZƏL ŞAİR

Fəridə Hacıyevanın adi ədəbi aləmə çoxdan və həm də çox yaxşı tanışdır. Fəridə Azərbaycanın çox güclü şairlər ordusunda layiqli yeri olan bir şairdir. Mən bu yazımda Fəridənin şairliyindən, şerlərindən danışmaq istəmirəm. Çünki, onun şerlərini təhlil etmək, onlar haqda mükəmməl fikir söyləmək iqtidarında deyiləm. Bu haqda söz sərrafları öz dəyərli fikirlərini dəfələrlə söyləyiblər və elə oxuculara təqdim olunan bu kitabda da öz sözlərini deyiblər. Mən Fəridəni oxuculara bir insan, bir qadın, bir şəxsiyyət kimi tanıtmaq istəyirəm. Əslində Fəridənin şerlərindən onun özü, qəlbi, öz xarakteri boylanır. Həssas oxucu Fəridənin kimliyini o an anlaya bilər. Fəridə Sumqayıt şəhərində müəllim ailəsində dünyaya gəlib. Əsli-kökü isə ulu Qarabağa, bu gün həsrətlə anılan Qubadlıya bağlıdır. Bəlkə Qarabağ dərdinə odlu yanğı elə bundan irəli gəlir. Qanla keçən bu təəssübkeşlik hissi, ağrı bütün yaradıcılığı boyu açıq-aşkar hiss olunur. Fəridənin valideynləri sözün əsil mənasında ziyalı vətəndaş olublar. Mən onun valideynlərini görməmişəm, amma Fəridənin aldığı tərbiyə onların simasını çox gözəl əks etdirir.

Kim nə deyir-desin, ilkin ailə tərbiyəsi insan xarakterinin formalaşmasında, bütün həyat yaşantısında özünü göstərir və böyük rol oynayır.

Fəridəxanım 1971-ci ildə K.Krupskaya adına kitabxanaçılıq texnikumunu, 1976-cı ildə isə Azərbaycan Dövlət İncəsənət Universitetini bitirib. 1983-cü ildə Respublika

Aşıqlar Birliyində metodist, folklor şöbəsinin müdiri vəzifəsində çalışıb. O zamanlar Fəridə artıq tanınan şair idi. Şerləri dövrü mətbuatdan, televiziya verilişlərindən oxucular yaxşı tanış idi.

Hal-hazırda Fəridə milli-mənəvi sərvətimiz olan M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanasının dövri-mətbuat bölməsinə rəhbərlik edir. Mən indi Fəridə xanımla həmkaram, iş yoldaşıyam. O öz işini sevən, ona məsuliyyətlə yanaşan bir vətəndaşdır.

Fəridə xanımın üç pyesi Mədəniyyət Nazirliyi tərəfindən qəbul olunmuşdur. Onun şerlərinə gözəl bəstəkarımız mərhum Süleyman Ələsgərov böyük qiymət vermiş və mahnı bəstələmişdir. "Aşıq Pəri" adlı şerinə Sevda İbrahimova mahnı bəstələmişdir. Fəridənin şerləri həm də qardaş Türkiyədə çap olunur. Müxtəlif illərdə poeziya almanaxı "Azərbaycan harayı" adlı toplularda Fəridənin sil-silə şerləri çap olunmuşdur. İlk kitabı isə 1998-ci ildə "Məni məndən alan dünya" adı ilə çap olundu. 2000-ci ildə "Dünyama qovuşacağam" adlı şerlər kitabı, 2001-ci ildə isə görkəmli Rumın şairi Mixay Emineskunun şerlərinin tərcüməsində "Ulduzlardan pay İstərəm" adlı kitabı çap olunmuşdur. Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Fəridə xanım həm də fəal ictimaiyyətçidir. Azərbaycan Rumıniya Mədəni Əlaqələr Birliyinin Məsləhət Şurasın üzvü, Azəri-Türk Qadınlar Birliyinin üzvü, "Şam" ədəbi məclisinin, "Məhsəti" şairlər məclisinin, "Aşıq Pəri" məclisinin ilk üzvlərindən biri olub. Fəridə xanım gözəl şair olduğu kimi, həm də gözəl dost, gözəl insandır. Qayğıkeş ana, səliqəli sahibə, mehriban, bir az da ciddi

nənədir. Vaxtsız itirdiyi Rövşən müəllimə sədaqətli Ömürgün yoldaşı olan Fəridə xanım iki ağıllı, savadlı, ləyaqətli övlad yetişdirib cəmiyyətə vermişdir. Nənə sevincinin xoşbəxtliyini yaşayan Fəridəyə daha böyük sevinclər arzulayıram.

Mən bütün azərbaycan qadınlarında görmək istədiyim, arzuladığım bir xüsusiyyəti Fəridədə görürəm və fəxr edirəm. Bu da bütün milli-mənəvi, etnik normaları özündə cəmləşdirən ləyaqətdir. Mən onu ləyaqətli bir insan kimi tanıyıram və sevirəm. Məncə ləyaqət hissi hamıda olmalıdır. Ələlxüsus qadınlarda. Qadın cəmiyyətin güzgüsü, mənəvi dəyərlərin əsas daşıyıcısıdır. Milli-mənəvi dəyərləri özündə yaşadan hər kəs millətin baş ucalığıdır. Məhz Fəridə xanım öz xalqına, vətəninə, ailəsinə başucalığı gətirən bir vətəndaş şairdir. Onun indi öz oxucularına təqdim etdiyi "Göylər pənahım mənim" kitabının seviləcəyinə və Fəridəyə yeni bir başucalığı gətirəcəyinə əminəm. Sənə cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram, bacım.

**Xuraman İsmayılova,**
***Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü,***
***M.F.Axundov adına Dövlət kitabxanasının***
***kitab saxlayıcı şöbəsinin müdiri***


ARXA OL
MƏNƏ,
VƏTƏN

## VƏTƏN

Vətən, sənin qulunam,
Keçilməmiş yolunam,
Əri ölmüş dulunam,
Arxam ol mənə, Vətən.

Hər daşına üz tutdum,
Qəriblikdə üz tutdum,
Mən adını yüz tutdum,
Doğmam ol, mənə, vətən.

Dilim sözümə həsrət,
Dağım, düzümə həsrət,
Sözün düzünə həsrət,
Kömək ol mənə, vətən.

Başım qeylü-qaldadı,
Gumanlarım yoldadı,
Güvənc yerim hardadı?
Koram, görmürəm vətən.

## VƏTƏNİ SEVİN

Vətəni sevin!
dedilər.
Dedilər,
Sevin Vətəni!
Bu söz
mənim içimdədir.
Vətən,
canımın öz təni.
Vətən,
mənim gur işiğım.
Ev-eşiyim.
Bayatıyla,
laylalarla
möhürlənmiş
söz beşiyim.
Ürəyimin
şah damarı.
Göz bəbəyim.
Vətən
mənəm,
Vətən
sənsən,
heç olarmı
öz canını,
sevməyəsən,
sevməyəsən.

## MƏNİ QORXUDAN

Bu mənəm,
bu torpaq,
bu da ki, səma.
Bu mənəm,
bu dövran,
bu da ki, zaman.
Boğulub
qalmışam.
İlahi
yaman.
Yaşamaq
nə qədər
çətindi,
çətin.
Gözlərim
kor olub,
Görmürəm daha,
Bu zülmət
qaranlıq
içimdə mənim.
Gümanım qalmayıb
vallah,
sabaha.

İtirə-İtirə
Seçim də mənim.
Beləcə
düz dünyam,
qovha-qovdadı.
Yatmışdım,
ayıldım.
Vətən hardadı?
Haqqım
qamarlanıb,
haqqım aldanır.
Arxamda
kimlərdi,
Kim daldalanır,
Bəs edər
Ayılaq
qəflət yuxudan.
O vədlər,
yalanlar
aldatdı bizi.
Vətən
yarılanıb.
məni qorxudan
Vallah,
İtirməkdi
bir-birimizi.

## A ÇADIR ŞƏHƏRCİYİM

Ürəyimdə yara var,
Yarada bir qara var,
Yaman ara vuran var,
A çadır şəhərciyim.

Duman gəlib üstünə,
Dözəmmirəm tüstünə,
Dərd çəkilib üstünə,
A çadır şəhərciyim.

Cavanlarım sozalıb,
Qocalarım azalıb,
Körpəmi azar alıb,
A çadır şəhərciyim.

Nə deyim, nə danışım,
Tutdu kimin qarğışı,
Ağrınıza qarışım,
A çadır şəhərciyim.

Mən də qolu bağlıyam,
Neynim, yolu bağlıyam,
Mənəm dolub, ağlıyan,
A çadır şəhərciyim.

## QAÇQINAM

Arzularım pərən-pərən,
Ürəyimi yoxdu görən.
Elim itib, hanı görən,
Qaçqınam anam, qaçqınam.

Dağ döşündə sarı çiçək.
Gəl yaramı sarı, çiçək,
Hanı doğru, hanı gerçək,
Uçqunam anam, uçqunam.

Əlimdə bir əsa gəlsəm,
Ya mən gələm, ya sən gəlsən,
Yollar uzun, yolda ölsəm,
Borclunam anam, borclunam.

## QƏM GÖRÜRƏM

***(İlham Qəhrəmana ithaf edirəm)***

Bu dünyanın acısını dadan sən,
At oynadıb, qamçısını atan sən,
Bu minvalla öz başını qatan sən,
Neyləyim ki, dəmində bir qəm görürəm.

Yurd arzusu, ilmə-ilmə sökülüb,
O bağların barı yaman tökülüb,
Bu sənmisən, belin necə bükülüb,
Yurdu talan, gözlərində qəm görürəm.

Nə yaylağın, nə aranın, nə düzün,
Aman-allah, yetimləşib üz-gözün,
Sinən odlu, qısılıbdı düz sözün,
İşə bir bax, kökdən düşmüş bəm görürəm.

## NİGARAN GEDİRƏM

Ürəyim dolubdu, ağrılarım çox,
Tükənib mənimki, bitib mənimki.
Haqsızlıq od təki baş alıb gedir,
Bu dünya dadıma çatan deyil ki.

Arzular sozalıb, qara düşübdü,
Ümidlər, diləklər tora düşübdü,
O haylı günlərim dara düşübdü,
İtirib bərəni, itirib bəndi.

Dilim də qısalıb, gözüm kölgəli,
Bu vətən, bu da mən, sözüm yox daha.
Yaman kölgəlidi üzüm, kölgəli,
Nigaran gedirəm üzü sabaha.

**BU GECƏ**

Bu gecə,
özümnən
incik, narazı.
Bu gecə
nəğmələr
könlümdə susub.
Bu gecə
yarımçıq
qalacaq yazım.
Bu gecə
qoy tanrım
məni qorusun.
Nə ulduz,
nə də ay
gözümə dəyir.
Elə bil,
göy üzü
dumanlanıbdı.
Bu zülmət
gecənin
xofu canımda.
Əllərim uzalı,
Guman qalıbdı.

Sabah da
açıla,
Günəş də
çıxa.
Gül aça,
güllənə
yer üzü yenə.
Dağlara üz tutam,
Düzlərə çıxam.
Eləcə,
sığınam,
nəğmələrimə.

## KÖÇƏN DEYİLƏM

Bu payız, bu duman, bu çən, bu çiskin,
Ömrümün ən acı, ağrılı yolu.
Nə olar, qayğını əsirgəməyin,
Qoymayın yoxuşda məni yorulum.

Eh, nələr görürəm namərd dünyada,
Kimsənin günahın çəkən deyiləm.
Nə vaxtsa doğmaydım, bu günsə yadam,
Neyləyim, dünyadan köçən deyiləm.

Gözüm də korşalıb, sözüm də itib,
Bu üzlər, bu gözlər çaşdırır məni.
Haqqın dərgahını unudan oğul,
Elə göz görəsi baş qatır, nədi.

## QAÇACAĞAM

Doğmalarım uzaqlaşıb ömrümdən,
Doğmalarım ilim-ilim itibdi.
Saçlarıma qar ələnib, düşüb dən,
Aman-allah, arzum sona yetibdi.

Əzizlərim, yaxınlarım yox daha,
Şaxta alıb ürəyimi, donuram.
Yığılıbdı qəm-qüssədən barxanam,
Dilim qısa, təslim olan ordunam.

Mən neyləyim, kədər mənə pay düşüb,
Tənhalaşıb yerim-yurdum, ocağım.
Ürəyimə bu kədərdən hay düşüb,
İndi mən öz ürəyimdən qaçağam.

## BU GECƏ

Yaman kövrəlmişəm bu gecə, neynim,
Elə bil ürəyim çiliylənibdi.
Bacara bilmirəm, açılmır eynim,
Arzumun üstünə qəm çilənibdi.

Varlığım uçunur səssiz, səmirsiz,
Ulduzlar göz açıb üzümə baxır.
Dünyanın kədəri, dünyanın qəmi,
Ürəyimdən keçib sozümə axır.

Bu gecə, bu gecə tənhayam yaman,
Bu gecə özümdən qaçaq düşmüşəm.
Bu gecə qanım da donub elə bil,
Bu gecə yerlərdən uzaq düşmüşəm.

## SÖZUM DƏN-DƏN

Fikirlərim qarışıq,
Mən özümə qapılıram.
Burdan ora,
ordan bura
Atım-atım
atılıram.
Göz önündən
nələr gəlir,
nələr keçir.
O günlərin
ağrısıdı,
Ürəyimi
dəlib keçir.
Xocalının
harayıdı qulağımda.
O qar,
soyuq,
Yada düşür.
Laçın,
Şuşa,
oylağında,
At üstündə
Yad ötüşür.
Dərdə
bir bax!

Utanıram
      öz-özümdən.
Üz çevirib
      bizdən torpaq.
Nəğmələrim -
         ağrılarım.
Sözüm dən-dən
Səpiləcək yer üzünə.
Gecələrim
      qarışacaq
            gündüzümə,
                  gündüzümə.

## DÜNYAM MƏNİM

Bu ömrümü dağ da bilib aşacam,
Bu ömrümü selə dönüb daşacam,
Nəğmələrlə ətirlənib başacam,
Yaşayacam, yaşayacam eləcə.

Dünyam mənə lay-lay deyən beşiyim,
O - anamdır - gecə-gündüz keşiyim.
Dünyam qalam, dünyam evim, eşiyim,
öz dünyama qovuşacam gör necə.

Tamarzıyam elə sözün düzünə,
Bilən yoxdu əyrisi nə, düzü nə,
Bu dünyanın dərdi böyük gözü nəm,
Mən də ona qovuşacam gizlicə.

# İSTAMBULUM

İstambulum, dəli-dolum,
Sənnən küsər olmuşam.
Demə burdan düşüb yolum,
Yaman qərib olmuşam.

Tanrı bilir, and içərdim,
Ətəyin canamazım.
Vətən sənlə ölçülərdi,
Səndin arzu-murazım.

Soyuqluğun bir dərd oldu,
Sən bənd olma istəyimə.
Nələr, nələr, nələr oldu,
Bu yuxuymuş, istəyim nə?

Yoxsa belə olmalıydı?
Bu dünyada mən naşıyam.
Vətən mənə qol açmırsa,
Mən dərdimin qardaşıyam.

## QƏRİBLİKDƏ

Elimi səsləyirəm,
Elim mənə əzizdi.
Bir yumruq ürəyimdə,
Ummanlaşan dənizdi.

Mən qərib, mən tənhayam,
Ürəyim səksəkədə.
Yolun azmış yolçuyam,
Yox olmuşam, bəlkə də.

Canım, gözümsən Vətən,
Qəriblik yamanıymış.
İndi dərk etdim bunu,
Vətənim anamıymış.

## MƏRMƏRƏ DƏNİZİ

Mərmərə dənizi, allah nə gözəl,
Bu başqa aləmdi, dalğalı beşik.
Bu dəniz, bu da mən, dönmüşəm ona,
İlahi, göylərdən yerə enmişik.

Ağ köpük gözəllik məlakəsidi,
Qaynaşır, üzümə çilənir hərdən.
Dünyanın duyğulu sirr bölgəsidi,
Dalğalı dənizin üzü mərmərdən.

Nağıllı dünyamın düşüb izinə,
Vallah, atılacam onun qoynuna.
Gəminin səsini batıracağam,
Dönəcəm dənizin dəli oynuna.

## XLOR VAR, XLOR

- Xlor var,
xlor!
- Mebel yağı,
kislota.
Millətin
gününə bax!
Çörək pulu
qazanır,
Zəhərə
bata-bata.
- Xlor, nə xlor.
Haray, həşir
qoparır.
- Dərdlərin
dərmanıdı.
Ürəklərdə
qövr edən
O qara ləkələri
Bircə anda
aparır.
- Xlor var,
xlor.
İlahi,
dərdimə bax!
Nəfəsi
zəhərlənmiş
Qardaşım,
bacılarım,

Gözlərimdə
yox olur.
O pəhlivan oğullar,
Səsləri
bata-bata
Ölür,
ölür,
doğulur.
Xlora
mahnı
qoşan var.
- Dadına
yetən gəlsin.
Qulaq tutub
qaçan kim.
Dərdini
uda-uda,
Ürəyini
açan kim.
Cılızlaşır atalar,
Acizləşir analar.
Qorxulu
ab-havada
Boy atarmı
balalar?
- Xlor var, xlor!
Gələcəyə
inamım
Gözlərimdə
yox olur.

## AY NƏSİMİ

*(Oğlum Nəsimiyə İthaf olunur)*

Bir meh əsdi, qəribsəyib mən çaşdım,
Elə bil ki, doğmalığa qarışdım,
Bu görüşdən oda donüb alışdım,
Yad ölkədə Kəlbəcərin havası.

Hər kəlməndə şirinliyin dadı var,
Öz dilində gül-çiçəyin adı var,
Gözlərində Kəlbəcərin odu var,
Dağlarımın sənsiz qalan səfası.

Vallah elə, mən də qərib kimiyəm,
Tənhalığa üzüb gedən kimiyəm.
Bu Vətənin kədəriyəm, qəmiyəm.
Qanım coşub, hayım torpaq davası.

El-obana qurban dedin özünü,
Mən qurbanam, qurban demə özünü,
Dağlarımın, düzlərimin dözümü,
Yetim qalan lalələrin yarası.

Kəlbəcərin dəli-dolu daşqını,
Yoxsa qərib ürəyində baş qatır,
Ay Nəsimi, ay elimin qaşqını.
Vətən var ha, qoy sizlərdən yarısın.

# VƏTƏNSİZ

Sən mənim qəlbimin şirin məlhəmi,
Döyünən ürəyi, coşan qanımsan.
Mən sənsiz olmuram bircə an belə,
Görəsən sən məni necə anırsan.

Tanrım bu yerləri gülşən yaratmış,
Təbiət yam-yaşıl, təravətlidi.
Elə bil gözəllik burda yaranmış,
Torpağı qüdrətli, bərəkətlidi.

Suları dupduru, təmizdi, safdı,
Sənin nəfəsini duyuram burda.
Gül-çiçək içində batıb qalmışam,
Salamlar, salamlar o doğma yurda.

# KÖVRƏLDİM

Qara dəniz sahilində kövrəldim,
Xəzərimə əlim çatmır, neyləyim.
Gözəlliyin beşiyində üzsəm də,
O yerlərdi şirin arzum, diləyim.

Dalğaların səsi ana laylası,
Uyuyuram nəğmələnən dünyamda.
Qara dəniz kövrək qəlbin aynası,
Ləpələnir həzin-həzin dünyam da.

Bu torpaqda dilim başa düşülməz,
Hər sözümdə, hər kəlməmdə naşıyam.
Ləldi, dürdü ana dilin hər bəndi,
Öz yükümü gərək özüm daşıyam.

## BU DÜNYA

Baxıram torpağa, baxıram daşa,
Əlini uzatmır qardaş-qardaşa,
Ürəklər bərkiyib, dönübdü daşa,
Bu dünya gözümdə ala torandı.

Cəhənnəm xofunun qorxusu itib,
Kiminin qorxudan yuxusu itib,
Çoxunun inamı, arzusu bitib,
Bu dünya gözümdə zülmət qaranlıq.

Başım üstündə dumana bir bax,
Haqqı qamarlayan yalana bir bax,
Allah, şükür sənə, qalana bir bax,
Lal olub dinmədik, üzdən dolandıq.

## ARANIZDAN KÖÇƏN MƏN

Bu günümdən gileyliyəm, gileyli,
Məcnun varsa, görən kimdi, kim Leyli,
Ürək sınıb, çal-çağıra yox meylim,
Yüküm ağır, qəm yükünü çəkən mən.

Ağrılarım "Ağrıdağa" yol çəkər,
Ürəyimdən nələr gələr, nə keçər,
Yol yarıda, anlar ötüb, gün keçər,
Meyim qəmdi, dərd sərimi içən mən.

Yalana bax, qamçılayır yer üzün,
Aman allah, şərə düşüb yer üzü,
Acizləşib haqdan gələn hər sözüm,
Bu minvalla, aranızdan köçən mən.

## İTİB MİZAN-TƏRƏZİ

Bu dünyanın çərxi yaman dönübdü,
Haqdan gələn, haqsızlığın içində
Baş açmıram, itib mizan-tərəzi,
Yerli-yersiz, gör bir kimlər seçimdə.

Tanrım, mənə bir yol göstər, yollanım,
Yerdən əlim üzülübdü, neyləyim.
Bu yolların çarpazına düşmüşəm,
Dolaşıbdı arzularım, diləyim.

Arxam yoxdu arxalanam, öyünəm,
Güvənc yerim düz amalım, düz sözüm.
Mat qalmışam, haqdan çoxu gen qaçır,
Alışmayır bu dövrana üz, gözüm.


EY... QƏLBİMƏ
DƏYMƏYİN!

## DƏRGAHINA GƏLMİŞƏM

Dərgahına gəlmişəm,
Könlüm gözəllik arar.
Varlığındı inancım,
Məni məndən ayırar.

Tanrım şükürlər olsun,
Qulun, kölən olmuşam.
Nurun düşüb üzümə,
Mən özümü bulmuşam.

Əfəndi babam haqqı,
İçimdə zikr edirəm.
Mərifət, əxlaq haqqım,
Diz çoküb, fikr edirəm.

Nəfsinin köləsi yox,
Ərənlərin içində.
İlahilər oxunur,
İlahilər içimdə.

Öz dünyamı tapmışam,
Dünyam nura boyanıb.
Əfəndilər, xanımlar,
Allah deyə boylanıb.
Dərgahına baş əyib.
Tanrıma şükr edirəm.
Ey... qəlbimə dəyməyin,
Dərviş olub gedirəm.

## YALANIYMIŞ

Bu dünya yalanıymış,
Sonu yox, talanıymış,
Ağrısı yamanıymış,
Ömrüm ötüb də getdi.

Ta dözüm də qalmayıb,
Sözüm bitib, qalmayıb,
Heç gözüm də qalmayıb,
Ömrüm də ötüb getdi.

Gedəcəyim yol uzun,
Yatım, yuxumu yozun,
Yalan dünyadan pozun,
Ömrüm də ötüb getdi.

## DÖZÜM DƏ MƏNİM

Qəm mənim özüməm, özüməm elə,
Dağ boyda dözüməm, dözüməm elə,
Bir damla göz yaşım elədən belə,
Gah dolur, boşalır gözümdə mənim.

Bu dünya mənimçün mizan-tərəzi,
Özüm də bilmirəm nədir qərəzi,
Yolum daş-kəsəkli, bağrımı əzir,
Dinmirəm, dözürəm, dözüm də mənim.

Haqqın dərgahında mən əli bağlı,
Hər günü qovğalı, ürəyi dağlı,
Haqsızlıq içində qərib, havalı,
Ağrılı hər kəlmə, sözüm də mənim.

## BU GECƏ

Bu gecə mən aya qonaq olacam.
Bu gecə həmdəmim ay olacaqdır.
Gözümün yaşını axıdıb elə,
Könlümü ulduzlar ovudacaqdır.

Eh... nələr keçəcək kövrək qəlbimdən,
Bu gecə batacam ay işığında.
Nağıllı dünyanın üz tutacağam,
Göylərin al-əlvan yaraşığında.

Bu gecə bir mənəm, bir ay parçası,
İlahi, ayağım üzülür yerdən.
Eləcə tanrıma yaxın olmuşam,
Elə bil yanıma can atır yer də.

## MƏNİ DİNDİRƏN OLMASIN

Qəmin donuna girmişəm,
Qəm nə olduğun bilmişəm,
Onun oynuna gülmüşəm,
Məni dindirən olmasın.

Bıı dünyanın qəmindəyəm,
Böyük eşqin dəmindəyəm,
Yerlər, göylər əlindəyəm,
Məni dindirən olmasın.

Dərgahımın yolu uzun,
Tanrım, qoyma yolda azım,
Yer üzündən elə pozun,
Məni dindirən olmasın.

## GƏL, OĞLUM

Sən mənim özümsən, sən mənim canım,
Sən mənim sevincim, öz həyəcanım,
Yanında qalıbdı bil, yarı canım,
Dünyam da, varım da, yoxum da sənsən.

O taydan bu taya nəfəsin gəlir,
Oğul, canım qurban, gur səsin gəlir,
Neçəsi yol gedir; neçəsi gəlir,
Hər an səksəkədə, qorxum da sənsən.

Gecələr dincliyim ərşə çəkilir,
Canımda ağrılar şişə çəkilir,
Göy üzü buludlu, ay da çəkilib,
Min rəngli, boyalı yuxum da sənsən.

Evimin qibləsin itirmişəm gəl,
Səbrimi sən həddə yetirmişəm, gəl,
Daha qocalığı gətirmişəm, gəl,
Ömrümün azı da, çoxu da sənsən.

## BU GÜN ZİKR ELƏMƏK DÜŞÜB KÖNLÜMƏ

Bu gün zikr eləmək düşüb könlümə,
Bu gün təmizlənib göyə gedəcəm.
Dünyanın ağrısı hopub canıma,
Dərdimi-sərimi göydə çəkəcəm.

Yollar pənahımdı, mənəm yolçusu,
Müqəddəs dərgahım, İmanım, bütüm,
Tanrımın nurudu düşüb üzümə,
Necə dəyişmişəm allah, büsbütün.

## TANRIM HÜNƏR VER MƏNƏ

Tanrım, hünər ver mənə,
İlmələnim soz üstə.
Oda, alova dönüm.
Nəğmələnim köz üstə.

Tanrım, hünər ver mənə,
Yanım, yanım alışım.
Eşidirsən səsimi
Nəğməm, konül barışım.

Tanrım, hünər ver mənə,
Tapım könül mülkümü.
Azad olmuş qulunam,
Gözləyirəm hökmünü.

## BU GÜNDƏN

Bu gündən
davaya
çıxacam.
mən də.
Bu gündən
ər oğlu,
Ər olacam mən.
Qoy tanrım
qorusun,
düşmənim də.
Meydana
baş alıb
vuruşacam mən.
Bir qala
quracam,
Haqqın sözündən.
Göylərdən
tanrımın
səsi gələcək.
Bilmirəm
əyrisi,
vallah, düzü nə.

Haqqın dərgahına
kimlər gedəcək.
Bu gündən
yalanın
ölümü gəlib.
Bu gündən
tanrıma
yaxın olmuşam.
Bu gündən
fəryadım
göyə yüksəlib.
Haqsızlıq
od salıb.
Mən qovrulmuşam.

## AC DÜNYADA TOX MƏNƏM

Bilirsənmi sən qəlbimin daşısan,
Yaxşı olar, bu yükümü daşısan,
Bəlkə elə, dərdlərimin başı sən,
Soyuqluqdan halım yaman yorulub.
Bu dünyadı, bu zamandı, bu ömür,
Mən də təkəm, qeylü-qalın içində.
Ölən mənəm, Ölməzliyim bir ömür,
Boğuluram, ümman mənim içimdə.
Göydə mələk arzusuyla ölürəm,
Bu yerlərdə işim yoxdu, yox mənim.
Dərviş olub, o yollara dönürəm,
Ulu tanrım, ac dünyada tox mənəm.

## ÖLƏN VAR

Sən də belə bir ürəyin yiyəsi,
Heç bilmirəm yiəliyəm, yiyəsi,
Nə çətinmi yol azmamaq yüyənsiz,
Düz sözümü əyri bilib, gülən var.
"Ağrı" dağa qardaş olmaq istərəm,
Dərdi böyük, yoldaş olmaq istərəm,
Yollarında bir daş olmaq istərəm,
Bu daşları bir əl çəkib bölən var.
Ürəyimin taqətinə sözüm yox,
Doyumluyam, bu dünyada gözüm yox,
Dirilərlə ötüşməyə dözüm yox,
Dinmə görək, haysız-küysüz ölən var.

## MƏN GEDİRƏM ÖLMƏYƏ

Ölmüşəm ey, ölmüşəm!
Gəlin götürün məni.
Hanı haqqın dərgahı,
Ora ötürün məni.

Ölmüşəm ey, ölmüşəm!
Elim məndən xəbərsiz.
Ay elim, ay elatım,
Məni siz götürərsiz.

Ölmüşəm, ey ölmüşəm!
Soruşan da yox niyə.
Zaman yaman korşalıb,
Mən gedirəm ölməyə.

## YOXUYMUŞAM

Heç elə bil yoxuymuşam,
Bircə anlıq yuxuymuşam,
Bəlkə əzəldən buymuşam,
Mən də qaldım yarı yolda.

Səsim yetməz, ünüm yetməz.
Yazım gedib, gülüm bitməz,
Ha gözlərəm, ölüm yetməz,
Yaman yorub məni yol da.

Od püskürür, tiyan dəmi,
Qəmə büküb atın məni,
Bu nə oddu, qatın məni,
Gözləyən var məni orda.

## MƏN YORULMUŞAM

Bir gün üzüləcək ayağım yerdən,
Bir gün ulduzlara qonaq gedəcəm.
Məni anlamayan, məni duymayan,
Yarımçıq kəslərə, elə güləcəm.

Bir dünya quracam təmiz, ləkəsiz,
Bir dünya quracam, tanrıma yaxın.
Bir dünya quracam qulsuz, kələsiz,
Arzuma sığınıb, dünyama baxım.

Bu namərd yerlərə gümanım yoxdu,
Bir nakəs sözünün qulu olmuşam.
Könlüm pərən-pərən, amanım yoxdu,
Ömrüm paralanıb, mən yorulmuşam.

## ÜZÜM O YANADI

O günlər, yadıma düşəcək mənim,
O günlər, ömrümün xoş görüşləri.
Qayıdan deyil ki, səsləyəm yenə,
Könlümü oynadan şux gülüşləri.

O günlər qayğılı, qayğısız anlar,
Daha keçmiş ola, gələn ki deyil.
O güllü bağçada açan çiçəklər.
Bilirəm, bilirəm mənimki deyil.

Bu sirli dünyada qonağam hələ,
O günlər al-əlvan nağıllı boxçam.
Bir qərib yolçuyam, yolum yarıda,
Üzüm o yanadı, ordan baxacam.

## BU GÜNƏ DƏYMƏ

Bu dünya bir oyun, biz oyunçusu,
Uduzan, udan da içimizdədi.
Hərdən bu oyunda çaşıb qalırıq,
Bilmirik sevinc nə, qəmimiz nədi?

Eləcə ömürdən ötür bu günlər,
İlahi, necə də yaşlaşırıq biz-
Enişli-yoxuşlu yolları ötüb,
Elə bil günbəgün daşlaşırıq biz.

Mənim qjsmətimə çən-duman düşüb,
Dünyadan inciyəm, küsgünəm demə.
Dünyama sığınıb nəğmələnirəm,
Amandı ey tanrım, bu günə dəymə.

## GÖYLƏRDƏN BAXACAM

Bu gecə bir ulduz üzümə düşüb,
Ulduz nur biçimli, gözümə düşüb,
Zamana nə deyim, gözümdən düşüb,
Dünyama qovuşub, gedəcəm daha.

Qınayan olmasa ölməyə hazır,
Ürəyim döyünür, dərdimi yazır,
Halım haldan çıxıb, qəbrimi qazır,
O taydan xəbərsiz, itəcəm daha.

Haqsızlıq içində qovrulacam mən,
Yerlər ögeyimdi, qovulacam mən,
Yenidən, yenidən doğulacam mən,
Göylərdən baxacam üzü sabaha.

## TƏNHALIQ

Gecənin
bir aləmi.
Bir mənəm,
bir də səsim.
Elə bil ki,
bu anda
Səssizlik
boğur məni,
Yoxa çıxır
nəfəsim.
Divar
üstümə gəlir.
Göydə
ulduz görmürəm.
Ay da
gözümə dəymir.
Ağrılarım
qol açıb,
Oynamaq
həvəsində.
Heç məni də
bəyənmir.

Nəğmələrim
        içimdə.
Nə dinən,
        nə danışan.
Vallah,
        üzü yolayam.
Gecənin
        bir aləmi,
Dünyama
        əl uzadıb,
Mənəm,
        mənəm,
                mənəm,
                        mən.
Tənhalığa qarışan.

## AY ALLAH

Mən dərviş deyiləm, dərviş ruhluyam,
Çəməndə çiçəyi duyam, qoxluyam,
Dünyanın içində qərib yuxuyam,
Ayıldan olmasın məni ay Allah.

Gedəndən, gələndən baş açmıram heç,
İstəyim sonsuzluq, eh... çatmıram heç,
İmdadım allahda, əl açmıram heç,
Yanıldan olmasın məni, ay Allah.

Nəfsin kəməndinə düşən deyiləm,
Bilirəm sınmaram, şüşə deyiləm,
Qoymayın bir sözdən düşəm, əyiləm,
Arzular qalmasın yolda, ay Allah.

## OYUNÇU DEYİLƏM

Gözlərimə kölgə düşüb, görmürəm,
Ölüm haqdı, ölüm ucuz, ölmürəm.
Neyləyim ki, varlığımdan dönmürəm,
Bu dünya çatısın salıb boynuma.

İşə bir bax, şər xeyirə dost deyir,
Altdan-altdan dost dediyin as deyir,
Toy mağara görən niyə yas deyir,
Vallah mat qalmışam zalım oynuna.

Ürəyim düz, gözlərim düz, əlim düz,
Ötənləri bircə-bircə otur düz,
Zaman çaşıb yarı yalan, yarı düz,
Oyunçu deyiləm girəm oyuna.

## GÖY ÜZÜNDƏ

Ayağım üzülür
yerdən,
Yaman gedir
ömürdən.
İlahi!
daralıram.
Daha qərar
tutmuram,
Göylər
pənahım mənim.
Yerdən
küskün düşmüşəm.
Buda
günahım mənim.
Buludlar
arasında
Halım
yaman pərişan.
Bəxtim
düşmən kəsilib.
Mən hazıram
yarışa.

Buludlar
sıra-sıra.
Buludlar
qucaq-qucaq.
Elə bil
göy üzündə,
Qəlbimə
qar yağacaq.
Səsimi
eşidən yox.
Nəğmələrim
lal-dinməz.
Dərdim
tərsə düşübdü,
Ağrıları görünməz.

## KÜSKÜNƏM

Mən qəmə bələnmişəm,
Qəm mənim içimdədi.
Qismətimə dərd düşüb,
Yamanca seçimdədi.

Gəlib ayrılıq dəmi,
Dünyam qana boyanır.
Həsrət mənə vay tutur.
Ölmüş anam boylanır.

Ağlamağa halım yox,
Qardaş, sənnən küsgünəm.
Oyan, nə olar oyan,
Sinən üstə güsgünəm.

## QORUYACAM MƏN

Halım yenə dönüb, tanrıma yaxın,
Soyuq ürəklərə imdad dilərəm.
Kömək ol bu yolda, mənim Allahım,
Yolumun çırağı səni bilərəm.

Sənə qovuşmaqdı arzum; diləyim,
Eşqinlə ruhumu bəzərəm Allah.
Sevgin həyatımdı, sevgin gərəyim,
Bu yolda sınasan, dözərəm vallah.

Bu meydan, lazımsa çək imtahana,
Namazım, orucum, imanım sənsən.
Yer nədi, göylərin qulu olaram,
Bir anlıq ya rəbbim, gözə görünsən.

Əməlin yoluna iz salacaqdı,
Nəfsimi nurunla doyuracağam.
Hamımız gedəri, ad qalacaqdı,
Yer üzün şeytannan qoruyacağam

# BU ÖMÜR ÖTƏRİ

Bu ömür ötəri, gəlib də keçdi,
Şip-şirin yuxuymuş, yox oldu daha.
Analı, atalı günlərə həsrət,
Bir də olammaram onlara yaxın.

Qayğımı çəkənim tərk edib getdi,
Vəfası buyumuş zalım dünyanın.
İçimdə bir boşluq, tərki dünyayam,
Yerlər ögeyləşib, yoxdu hayanım.

Lal olub susmuşam, sözüm yox daha
Ömrümün ağrılı çağındayam mən.
Yarpağı tokülmüş xəzan fəslinin,
Kədərdən üzülmüş bağımdayam mən.

# DƏRD İÇİNDƏ ÜZƏM, ÜZƏM

Halım çaşıb, söz tükənib,
Dolanıram boş küçəni,
Şaxta vurmuş bu gül kimin?
Aman Allah, mənə bənzər.

Gözümdə yaş doğru, gerçək,
Hər damlası ləçək-ləçək,
Ötən günlər gözəl-göyçək,
Bu günümə necə dözər.

Bilən bilir, bir kəmim yox,
Ümmandayam, öz gəmim yox,
Bir qayığım, yelkənim yox,
Dərd içində üzəm-üzəm.

## RAMAZAN

Ayların tacı ramazan,
Könlün inancı ramazan,
Canımın canı ramazan,
Qədəmlərin mübarək.

Mətləbin, nəfsin dup-duru,
Amalın insan qüruru,
Yollar dərgaha burulur,
Bu yolların mübarək.

Günlərimin şahı sənsən,
Göy üzünün mahı sənsən,
Əvvəli sən, axır sənsən,
Mübarəksən, mübarək.

# ƏFƏNDİM

**(Bürhanəddin Əfəndiyə ithaf olunur)**

Dərgahına qurban olum, əfəndim,
Hər daşına diz qoymağa izn ver.
İmanını sən, inancım sən, əfəndim,
Dərs versən də qəbulumdu, gizlin ver.

Dağlar aşıb, dəniz keçib gəlmişəm,
Bu görüşdən ömrüm nura dönəcək.
Keçənləri yada salıb gülmüşəm,
Əl sinədə kimlər salam verəcək.

Ərənlərim, xanımların boydadı,
Başın üstə "Hu" deyənlər bizlərik,
Neyləyim ki, bizdə belə qaydadı,
Ağam mənim, göz yaşını gizlərik.

## BU GECƏ

Ruhum yenə bu gecənin qonağı,
Tənhalığın bağrı, dağım-dağımdı.
Yolum uzun, yol gedirəm bu gecə,
Ulduzlar da pərən düşüb dağıldı.

Nələr gəlir, nələr keçir könüldən,
Ağrılarım ürəyimə tuşlanır.
Balacaydım, o dağılan evciyim,
İt ötdükcə eh... yenidən daşlanır.

Diləyim çox, arzularım bir yığın,
Yolum uzun, yol gedirəm harasa.
Dörd yanıma göz gəzdirib baxıram,
Üzə çıxıb, bu dünyanın qarası.


ƏSRİ
YARILAMIŞAM

## ƏSRİ YARILAMIŞAM

Əlli yaşa nə qalıb,
Əsri yarılamışam.
Qocalıq tində durub,
Onu qaralamışam.

Elə bil yuxudaydım,
Omrüm necə tez ötdü.
Yatdım, ayıldım, durdum,
Gördüm ocaq sönübdü.

Əlim uzalı qalıb,
O günlər gələn deyil.
Çoxu yox, azı qalıb,
Ürəyim mənə deyir.

Gözlərim dumanlanıb,
Baxışım tora düşüb.
Vallah seçə bilmirəm.
Gəncliyim hara düşüb?

Könlüm leysan yağışı,
Həmdəmim göz yaşımdı.
Əsri yarılamışam,
Bu məmim öz yaşımdı.

## HEÇ ŞAİR OLMAMIŞAM

Nə şair
olmaq eşqində,
Nə şerimin
həvəsində.
Əlim yerdən
üzülüb.
Asılı
qalmışam mən,
Ölüm
məngənəsində.
Hissim,
duyğum
korşalıb.
Mənə elə
gəlir ki,
Heç şair
olmamışam.
Bu dünya
üzündə mən,
Vallah,
doğulmamışam.
Qəhər də
boğmur məni,

Bir bolluca
ağlayam.
İçin-için
hönkürəm,
Ürəyimi
dağlayam.
Eləcə
donub ürək.
Nəsə,
nəsə gözləyir.
Tanrım
başımın üstən
Döz,
əzizim
döz,
deyir.

**NƏZRİNİM**

***(Nəzrin Rasim qızına ithaf olunur)***

Atasının göyçəyi,
Dodağı gül ləçəyi,
Nəzrinim dağ çiçəyi,
Günəş ilə yarışır
Gözəlliyə qarışır.

Gözləri göz oxşayır,
Anasına oxşayır,
Ay üzünü yaşmayır,
Nəzrin görünən zaman,
Bu nə gozəllik, aman.

Kamalına vuruldum,
Onu gördüm, duruldum,
Qəm-qüssədən yoruldum,
Bu qız ümman dalğası,
Bəd nəzərdən saxlasın.

İsit dədə ocağın,
Sevinc dolu qucağın.
Bu evdən umacağın
Fərəh, səadət olsun.
Nəzrinim xoşbəxt olsun!

## ÖZ BAXIŞIN VAR

Sevirəm, sevginin qəbahəti yox,
Sonu gorünməzdi, yazı, qışı var.
Varlığın tilsimə salıbdı məni,
Dolmuş gözlərində yaz yağışı var.

Göy çəmən, gül-çiçək, ay da, günəş də,
O şirin, o şəkər, noğul gülüş də,
Səni necə duydum, mən ilk gorüşdən,
Kövrək ürəyində gül naxışı var.

Vallah, bəxtəvərəm, deyəsən mən də,
Adın hey dolanır, gəzir dilimdə,
Gözünün nurudu sevən qəlbimdə,
Məni ovsunlayan öz baxışın var.

**QƏDƏMİN MÜBARƏK**
**(Rövşən balama ithaf olunur)**

Könlümdə yaz doğub, əlvan ləçəkli,
Hər yan ətirlənib, güldü, çiçəkdi,
Nəvəm nur qönçəsi, gözəl-göyçəkdi,
Qədəmin mübarək, mübarək balam.

Novruzun bərəkət xonçasısan sən,
Nənənin nağıllı boxçasısan sən,
Şəkərli-noğullu taxçasısan sən,
Qədəmin mübarak, mübarək balam.

Babanın adını doğrult balaca,
Bu ad ləyaqətli, ucadan, uca,
Yaşat onun adın, dünya durduqca,
Qədəmin mübarək, mübarək balam.

## KÖNLÜMÜN NƏĞMƏSİYƏM

İllər günüm ağır yüküm,
Ömrü daşıyan mənəm.
Yollar aldadan oldu,
Nədən naşıyam, nədən.

İçimdə qəm havası,
Mən qəmin dəlisiyəm.
Yerə, göyə sığmayan,
Könlümün nəğməsiyəm.

Beləcə yollar sonsuz,
Hamı yolun yolçusu.
Qəmimi tuşlamışam,
Mənəm onun ovçusu.

## BU DA QİSMƏTİMİZ

Sənin gozlərində həsrətin izi,
Bu həsrət yıxacaq hər ikimizi,
Harda itirmişik bir-birimizi,
Ordaca sevilək, sevək alışaq.

Yaza bax, könlümə naxış vurmaqda,
Al-əlvan çiçəkdən dünya qurmaqda,
Məni səndən, səni mündən sormaqda,
Gəl gülə, çiçəyə dönək, qarışaq.

Neyləyim, gözlərəm əli uzalı,
Bu yollar eləcə bilmir, uzanır,
Kim isə uduzur, kimsə qazanır.
Bu da qismətimiz, neynək, barışaq.

*Qış fəslinin ortaları idi. Xəstəxanada yatırdım. Halım çox qarışıq, əhvalım pərişan idi. Özümə heç cürə yer tapa bilmirdim. Az da olsa ovunmaq istəyirdim. İçimdən doğan narahatlıq mənə dinclik vermirdi. Elə bu vaxt yatdığım otağın qapısı açılır. Mənim həyatımda ən dəyərli, nəcib insanlardan biri olan İsmayıl dayı, Züleyxa xala içəri daxil oldular. Onları görüb çox kövrəldim. Ozümü o yerə qoymayıb, əzizlərimi gülərüzlə qarşıladım. İsmayıl dayının əlində balaca bir bənövşə çiçəyinin dəstəsi var idi. İsmayıl dayı bənövşəni mənə verib, dedi:*

*- Yanına gələcəyini bilib, bağa getdim ki, bu bənövşələri sənə gətirim. Otaq, çox gözəl, təmtəraqlı gül dəstələri ilə dolu idi. Ancaq əlimdə tutduğum bənövşənin bir az solğun, incə kövrəkliyi məni məhvərindən çıxartmışdı. Elə bil ki, bir anda otağım nura boyandı, ılıqlaşdı. İlahi adi bir çiçək insanı haldan-hala salarmış. Al-əlvanlğı ilə göz qamaşdıran gül dəstələri, elə bil ki, mənimlə savaşa çıxacaqdı. Mən onların nə təravətini, nə də ki, şuxluğunu görürdüm, Gözün boynu bükük, ömrü gödək bənövşəmdə idi. Onunla, heç kimin duymadığı həzin bir pıçıltıyla dərdləşirdim.*

## BƏNÖVŞƏM

Bənövşəm, sənə qurban,
Solmusan mənim kimi.
Sən gözəllik müjdəsi,
Bəs, görəsən mən kiməm?
Ömrün ani - bir anlıq,
Gözəmi gəlirsən sən;
Ruhuma bənzərin var,
Səssizcə dinirsən sən.
Bənövşəm, şah çiçəyim,
Vallah, sənə dönürəm.
Mənim gözəl-göyçəyim,
Eh... deyəsən ölürəm.

**QƏMDƏN BİÇİB**

Yolların izinə düşən olmuşam,
O taydan, bu taya düşən olmuşam,
Gah qəmdə, kədərdə, gah şən olmuşam,
Bu dünya bir oyun, gəlin oyuna.

Arzular gül açıb, diləyə bir bax,
Vallah dozümlüyəm, biləyə bir bax,
Nəğmələr dillənib, ürəyə bir bax,
Eləcə qol açıb, girim oyuna.

Qismətin ağrısı közdü sinəmdə,
Baxsan qalaq-qalaq sözdü sinəm də,
Eh... nələr dolandı, gəzdi sinəmdə,
Tanrım qəmdən biçib donu boyuma.

**BU HARASIDI**

Xəzana donübdü yenə gözümdə.
Payız ürəyimin qəm nidasıdı.
Qaçqınam, qaçıram özüm-özümdən,
Ağrılar könlümün od libasıdi.

Bu yağış, bu tufan mənim içimdə,
Gör nələr püskrür, qopur içimdən,
Ömür körpüsünü belə keçirəm,
Eh... məni göynədən el yarasıdı.

Torpağa sığınıb imdad dilərəm,
Özümü özümə mən yad bilərəm,
Tanrımdan yenilməz qanad dilərəm,
Arzular tükənməz, bu harasıdı.

## KİLİDİNİ AÇMIRAM

Donum qəmdən geyilib,
Dünya qəddim əyilib,
Sənmi, məmni gileyli,
Özüm də baş açmıram.
Şaxta vurmuş kimiyəm,
Eh... qovrulmuş kimiyəm,
Bil, yorulmuş kimiyəm,
Mən baş alıb qaçmıram.
Ürəyimə dən düşüb,
Ayrılıq nədən düşüb,
Vüsal məndən ötüşüb,
Kilidini açmıram.

## İNSANLARI SEVƏRDİM

Günlərin
bir günü
mən vardım.
Sevərdim
dünyanın
insanlarını.
Arzularıma
güvənib,
qanadlanardım.
Hamını
sevərdim,
hamını.
Dəlisini, dolusunu.
Zəifini,
axmağını.
Hələ desən,
qismətimin
ağrı dolu
toxmağını.
Qamçıların
zərbəsinə
dözərdim də.
Cavanlığın
dözümü çox.

Möcüzəsi,
sehiri çox.
O dup-duru,
nəfəsimlə.
Əzabları,
acıları
Əzərdim də.
Bax beləcə
dolanardım
yer üzündə.
Qəmə yoldaş
olardım da.
Gecə,
gündüz
qəhərlənib
dolardım da.
Mən sevərdim
insanları.
Qocasını,
qarısını.
Mən sevərdim
yer üzündə,
İnsanların
hamısını,
hamısını.

## BƏS NİYƏ İNCİYİK

Sən mənim qəlbimin ağrılı yeri,
Sən mənim özümə düşmən kəsildin.
Qovruldu ocağım, dağıldı evim,
Quruca adın da vallah bəsimdi.

Gözüm gözlərində, nəfəsin təmiz,
Oxu ürəyimi, oxu nə olar.
Arzular, istəklər bəyaz, tərtəmiz,
Yox olsan varlığım göyə sovrular.

Dünyamız bir olub hər zaman, hər an,
Dünyamız böyüyür gözlərimizdə.
Bizə kömək olub, bizi yaradan,
Bəs niyə inciyik öz-özümüzdən.

## GƏLƏSİ DEYİL

Əllərin buz kimi, üşütdü məni,
Eşqin qanadından düşürtdü məni,
Bu da bir şaxtalı görüşdü, nədi?
Elə bil qəlbimiz isinən deyil.

O şirin, o şəkər günümüz hanı?
Laləli, çiçəkli düzümüz ham?
Sevgidən odlanan konlümüz hanı?
Mən də qəm-kədərin səsiyəm deyir.

Bu dünya fanidir, biz də gedəri,
Nə varsa bilirəm ani, ötəri,
Bu günlər sabaha bizi ötürür,
Bu günlər bir daha gələsi deyil.

# İSTƏSƏN

Sənin gözlərində oda dönəcəm,
Qönçə dodağında dada dönəcəm,
İstəsən, gen düşüb, yada dönəcəm,
İstəsən, istəsən, istəsən bunu.

Sən varsan, bu dünya yaşar gözümdə,
Yox olsan, itərəm özüm-özümdən,
Nə olar, bir anlıq çıxma sözümdən,
Çıxmazsan istəsən, istəsən bunu.

Mələksən, düşmüsən bu yer üzünə,
Rübəndin nurundu, düşüb üzünə,
Məni çaşdırmısan, buna sözün nə?
Ölərəm istəsən, istəsən bunu.

# BU PAYIZ

Payız ürəyimi göynədir, nədi,
Payız xəzanlaşır, solur gözümdə.
Elə bil, bu çiskin min qərinədi,
Bir leysan yağışı axır gözümdən.

Hava da qaralıb,ürəyim kimi,
Hamıdan xəbərsiz yoxa çıxmısan.
Uzaqdan duyuram, əl içi kimi,
Mənimçün bilirəm, sən darıxmısan.

Bu payız, bu da mən, dumana bir bax.
Başımın üstündə fələyin əli.
Qurtulub yerlərdən göylərə qalxaq,
Daha bürüməsin bizi qəm seli.

## NƏ YAXŞI

Gəncliyim nə yaman ötüd də getdi,
Elə bil küsmüşdü, məni tərk etdi,
O şirin, o şəkər günlərim bitdi,
Bəlkə bir yuxuymuş, heç bilməmişəm.

Ürəyim yerindən çıxmağa bənddi,
Bağlayır yolları, bərəni-bəndi,
Daha dözəmmirəm, səbrim tükəndi,
Nə yaxşı bu yolu keçəmməmişəm.

Bu yorğun canımın halı hal deyil,
Tanrım da eləcə toxtaq ol deyir,
İblismi yol kəsib, qara yol, deyir,
Çox şükür, ölümə əyilməmişəm.

## SEV MƏNİ

Səni sevirəm demə,
Qoy gözlərin söyləsin.
Əlini ver əlimə,
Ürəyimiz göynəsin.

Nə din, nə danış hələ,
Nəfəsin mənə bəsdi.
Tökdüyün şirin dillər,
Vallah gülüm, əbəsdi.

Lap adicə sev məni,
Haysız, küysüz, eləcə.
Qoy qəlbinin oduna,
Mən bülənim gizlicə.

## AĞIRDI MƏNƏ

Bu zalım günlərin görəcəyi mən,
Əzizim təklənib, qalmışam demə.
Gör hələ nələri görəcəyəm mən,
Bilirsən, yamanca ağırdı mənə.

Yalanlar bağrımı dəlib də keçdi,
Varlığım qandallı, uçurumam mən;
Yaralı qəlbimdən eh... nələr keçdi,
Dağ idim, dağıldım, uçurumam mən.

Ayağım yer tutmur, halım qarışıq,
Doğmalar ayrılıq dəmini vurur.
Arzular, istəklər qarma-qarışıq,
O keçən günlərim, göyə sovrulur.

Bu zalım günlərin görəcəyi mən,
Əzizim, təklənib qalmışam demə.
Gör hələ nələri görəcəyəm mən,
Bilirsən, yamanca ağırdı mənə.

## MƏNİ KÜSDÜRMƏ

Bəlkə görüşlərin sonu çatıbdı,
Nə sən yanılırsan, nə mən deyəsən.
Bu dünyam ağrılı, acılı mənim,
Ölməyə razıyam vallah öl desən.

Doğmalar içində qəribəm elə,
İnsanlar dönükmüş, şərə düşmüşəm.
Qəmimlə üz-üzə, dilbirəm demə,
İlahi, nələrdən mən ötüşmüşəm.

Ayrılıq dəmidi, gəlir üstümə,
Yoxluğun könlümün soyuq məzarı.
Səbrim də tükənib, məni küsdürmə,
Ah, necə dözəcəm bu ahu-zara.

## SEVGİMİZ

Ömrümün pozulmaz səhifəsində,
Bir mənəm, bir sənsən, bir də sevgimiz.
O ənbər ətirli gül nəfəsində,
Gül açır, güllənir öz sevincimiz.

Səhərin ən parlaq şeh damlasısan,
Toxunsam dağılıb səpələnərsən.
Məni sevməyində yanılmamısan,
Qəlbimin quluyam, bunu bilirsən.

Gözlərin gözümün nur işığıdı,
Dünyaya baxıram gözlərinlə, bil.
Sevgimiz göylərin yaraşığıdı,
Vaxt ötür, ömrümüz bizi gözləmir.

## DÜNYADAN İTMİŞƏM

Yenə də ruhuma qapanıb könül,
Yenə də içimdə savaş, var nədir?
Gör nələr yox olur, nələr görünür,
Elə bil yoxluğum bir qərinədir.

Bu yerdən üzülüb ayağım elə,
Dünyadan itmişəm, yoxam əzizim.
Bu aləm içində elədən belə,
Dərdin əlindədi, yaxam, əzizim.

Ömrümüz bir qumar, uduzdum Allah!
Doğmalar taleyin nəs daşlarıymış.
Çoxu başqalaşıb quduzdu Allah!
İllərin qazancı göz yaşlarıymış.

Nə deyim, nə deyim qara baxtıma,
yerlərdən inciyib, küskün düşmüşəm.
Əlim də çatmayır şahlıq taxtıma,
Sən demə heç olub, mən ötüşmüşəm.

## QORXUDUR MƏNİ

Sən mənim doğmamsan, sən mənim yadım,
Sən mənim qırılan qolum, qanadım.
Səni tanrım bilib, göydə aradım,
Bilirəm, bu yerdə yerim yox mənim.

Nə qışa qış dedim, nə yaza yazım,
Yer göstər, qəbrimi əlimlə qazım,
Səninlə biçilib bu ömür yazım,
Qəlbimə tuşlanan namərd ox mənim.

Nə deyim, taleyin yazısı yaman,
Bu da görəcəyim - ürəyə daman,
Gumanım qalmayıb, məni yaradan,
Gələcək taleyim qorxudur məni.

## SƏN YOXSAN

Yenə səs-səmirin kəsilib nədi?
Yenə bu dünyadan itkin düşmüsən.
Səni görmədiyim bir qərinədi,
Gülüm, güllər ilə sən gorüşmüsən?

Sən mənim bəxtimin son nöqtəsisən,
Özüm də bilmirəm, nə deyim sənə.
Ağrmın, acımın kövrək səsisən,
Ömrümə üz tutub, yenə gəlsənə.

Sənsiz bu dünyadan küskün düşərəm,
Bu yerlər olammaz pənahım mənim.
Göylərə üz tutub, mən görüşərəm,
Səninlə açılsın sabahım mənim.

## GÜNAHKAR ÖZÜMƏM

Sən məni incitmə, bezmişəm daha,
Ömrümün şıltaqlıq çağı ötübdü.
Daha dözəmmirəm bu ayrılığa,
Həsrətim nəğməyə, sözə dönübdü.

Sən məni incitmə, incitmə bəsdi,
Vüsalın nağıllı dünyaya bənzər.
Sənsiz bu həyatım quruca səsdi,
Sənsiz bu ruhumda tufanlar gəzər.

Sənsizlik içində çəkilib yuxum,
Bu payız havası çaşdırıb məni.
Varlığın əzabdı, yoxluğun qorxum,
Arzular, istəklər qarışıb nədi?

Daha nə səbrim var, nə də dözümüm,
O günlər gözümdə heç olub getdi.
Bilirəm, günahkar yenə özüməm,
Məni qınamayın, sağ olun, getdim...

## DÜNYA SƏNƏ DAR GƏLİR

Soyuqdan üşünüb girdin qınına,
Üstünə elə bil acı qor gəlir.
Unutdun bizləri, ay bərəkallah,
Sözə bax, deyirsən yaman qar gəlir.

Bilmirəm halına ağlayım, gülüm,
Görən hara köçüb oylağın, gülüm,
Alışdım, göylərə sovruldu külüm,
Haqqı söyləyimmi? mənə ar gəlir.

Bu qar da, şaxta da ömrün payıdı,
Yatmısan, vaxt gedir, yoxdu ayıldan,
Bütün qayğılardan ötüb yayındın,
Ay zalım, dünya da sənə dar gəlir.

## BARIŞAN DEYİL

Bu sənin səsinmi qulaqlarımda
"Mən səni ürəkdən sevmişəm" deyir.
Yox, yox, lazım deyil bu etiraflar,
Qəlbim ki, səninlə barışan deyil.

Sənli günlərimdi - daha geridə,
Demirəm o günlər geriyə dönə.
Sən duman içində bir an göründün,
Könlüm bu dumana qarışan deyil.

Sənsiz dolanıram, şükür bu günə,
Dünənim görünməz, ötür bu günüm.
Daha söyləmirəm "ay ömrüm-günüm",
Ürəyim bir daha alışan deyil.

## SƏNSİZ

Başımın üstündə həsrət, ələm, qəm,
Yoxluğun ömrümə yağı kəsilib.
Özüm də bilmirəm nədəndi, nədən,
Ürəyim uçunur, nitqim kəsilib.

Sən yoxsan, bu dünya susub elə bil,
Nə hayım, harayım, nə sözüm qalıb.
Sevincim özünü asıb, elə bil,
Odum-alovum yox, bir közüm qalıb.

Kövrək nəğmələrin çələnginə bax,
Hər teli mənimlə durub baş-başa.
Nəğmələr səsləyir, göylərə qalxaq,
Ulduza qarışaq, aya qarışaq!

## BELƏ DƏRD OLMAZDI

Yaman yerdə ömrün bitdi,
Körpələri gəl kirit di,
Bu nə sirdi, nə kiliddi?
Qardaş, belə dərd olmazdı.

Ölmüş bacın dərdi dəlib,
Sinəsində qəm güllənib,
Ürəyimdən gülləlvalənib,
Qardaş, belə dərd olmazdı.

Sevgimizcə yaşamadıq,
Yaman yerdə axşamladıq,
Tellərini oxşamadıq,
Qardaş, belə dərd olmazdı.

Zalım fələk mənə düşmən,
Daşım ağır, göydən düşən,
Mən bəxti kəm, bəndə düşən,
Qardaş, belə dərd olmazdı.

## YARIN YAMAN DİL AÇIB

Yandırıb oda yaxdın,
Axdın, su kimi axdın.
Bizə beləmi baxdın,
Ağzımın dadı qardaş.

Bacılar deyər ağlar,
Ürəyə qara bağlar,
Dünyama bax, qan ağlar,
Gözümün odu qardaş.

Həyət-bacan gül açıb,
Əzizlərin tel açıb,
Yarın yaman dil açıb,
Di gəl, toyundu qardaş.

## GƏL GÖRÜŞƏK

Vurdun qəlbimizə yara,
Dağ çəkib getdin qardaşım
Varlığınla sevinirdik,
Ölümlə necə barışım.

Od içində qoydun bizi,
Dincliyimiz yoxdu daha,
Ağlar qoydun gözümüzü,
İndi daha yoxdur arxam.

Mən bacımdan, bacım məndən,
Xoflu-xoflu dolanırıq.
Qardaş, bəlkə ölməmisən,
Bəlkə elə aldanırıq.

Vallah, yetim qalan mənəm,
Hey... gəzirəm, tapammıram.
Qayğı dolu nəfəsini,
Bir kimsədə duyammıram.

Bacın qurban gəl, nə olar,
Yoxluğuna dözmür ürək.
Dizin-dizin sürünərəm
Qəbrinəcən, gəl görüşək.

## SƏSİMƏ SƏS VER GƏL

Gözümün odu qardaş,
Ocağım-odum qardaş.
Yiyəsiz oldum, qardaş,
Səsimə səs ver, gəl.

Kimsə çatmaz dadıma,
Hey... düşürsən yadıma,
Qurban olum adına,
Səsimə səs ver, gəl.

Lay-lay qardaşım lay-lay,
Canım, sirdaşım lay-lay,
Gözümdə yaşım lay-lay,
Səsimə səs ver, gəl.

Belimi qıran oldun,
Bağrımı yaran oldun,
Qaysaqlı yaram oldun,
Səsimə səs ver, gəl.

Halım hal deyil daha,
Dözəmmirəm bu dağa,
Nabatım, qəndim qağam,
Səsimə səs ver, gəl.

## QƏMİM ƏLƏNƏSİ

Gecələr yuxumun bəyaz rəngisən,
Göydə ulduzların öz ahəngisən,
Bu dünya durduqca bil, mənimkisən,
Ey könül arzusu sənsən, diləyim.

Nə danış, nə də din, baxışın bəsdi,
Qarşında nə varsa gülüm əbəsdi,
Sənin gözəlliyin yolumu kəsdi,
Bu payız ömrümə əsən küləyim.

Hər anım, hər günüm səninlə ötür,
Durna qatarıtək, illərim ötür,
Olmüşəm, bu yerdən gəl məni götür,
Qəmim ələnəsi, yoxdu ələyim.

## KÜSMÜŞƏM

Səndən incimişəın, səndən küsmüşəm.
Varlığın yox olub, inan gözümdə.
Bu da bir bəladı, yaman düşmüşəm,
Əlimi üzmüşəm özüm-özümdən.

Ruhumu əzəcək bu üzüntülər,
Ağrılar, acılar yol yoldaşımdı.
Nədir bu xəyallar, bu görüntülər,
Arxamca atılan qara daşımdı.

Bilmirəm, dünyamı çaşdırır nədi?
İnciyəm, heç kimdən umacağım yox.
Bir ünvan gəzirəm ovutsun məni,
Neyləyim qəribəm, od-ocağım yox.

## ÖLMÜŞÜK GÜLÜM

Daha gözlərinə baxa bilmirəm,
Gözündə qəlbinin buz soyuqluğu.
Bilmirəm nədəndi, axı bilmirəm.
Hardan toplamısan bu soyuqluğu.

Halım da dönübdü çərxi-fələk tək,
Sınmışam, dözümüm yoxdu dözməyə.
Qəmin ümmanında batıb qalmışam,
Gümanım qalmayıb, qorxdum üzməyə.

Nə mən günahkaram, nə sən, bilirəm,
Zamanın quluna dönmüşük gülüm.
Həyat qəlbimizi elə sıxıb ki,
Bəlkə dirigözlü ölmüşük, gülüm.

## BU YER ÜZÜNDƏ

Sən mənim keçmişim, qaldın dünəndə,
Daha gələmməzsən, bilirəm bunu.
Qaldı o günlərdən xoş xatirələr,
Sənsizəm, olmuşam illər yorğunu.

Demə, yoxluğuna alışır ürək,
Tənhayam, harayım içimdə dinir.
Eləcə közərir, alışır ürək,
İşə bax, gizlicə danışır, dinir.

Diriykən ölmüşəm bu yer üzündə,
Mənə həyan durub, dəfn edən də yox.
Dolanmaq çətindi bu yer üzündə,
Yanına gəlməyə ağ kəfən də yox.

## SƏNSİZLƏMİŞƏM

Sənsiz günüm qara düşüb,
Qismətə bax, tora düşüb,
Eh, könlümə yara düşüb,
Gəl ay qardaş, kirit məni.

Nə yamanmış sənsizliyin,
Məni alıb səssizliyin,
Bacın yaman sənsizliyib,
Gəl ay qardaş, kirit məni.

Od-ocağın külünə bax,
Bağın solub, gülünə bax.
Dərdim böyük, günümə bax,
Gəl ay qardaş, kirit məni.

## DƏRDİMİ DEYƏCƏYƏM

Bir kəlmən ox olub, qəlbimə batdı,
Neylədin, dünyamı dağıtdın gülüm.
Arzular, istəklər oyatdı məni
Yatmışdım, qəfldən ayıldım gülüm.

Yalanın içində batmışam gülüm,
Çiçəyəm, şaxtadan boynu bükülü.
Sevgidən qurduğum o kiçik daxmam,
Gözlərim önündə necə sökülür.

Taleyin, qismətin gərdişinə bax,
Tanrım da əlini çəkib üstümdən.
Elə alovlanıb yanıram Allah!
Göylərə yol salan mənim tüstümdü.

Daha bu dünyada nə sən, mən varam,
Xatirəyə donüb sənli anların.
Elə qubarlayıb sinədə yaram,
Bu dərdə bir çarə yoxdu - anlaram.

## SƏNİ KİMDƏN SORUM

Bu illər ömrümə yazılmasın heç,
Bu illər, taleyin qara üzüdü.
Qoyma yolda azım, günahımdan keç,
Sən soruş, deyəcəm vailah düzünü.

Kimlərin tuşuna gəldin, bilmirəm,
Ömrümdən yel kimi əsib də getdin.
Bilirsən nə qədər lazımdın mənə,
Gec gəldin, necə də tələsib getdin.

Sənin gözlərində məhəbbət, sevgi
Gəzirdim, yox oldu arzum, istəyim.
Yoxluğun qəlbimdə ən böyük itkim,
Səni kimdən sorum, sənsən diləyim.

## MƏNİMSƏN, MƏNİM

*(Afina xanıma ithaf olunur)*

Mən sənin gözündə sevgi gəzirəm,
Qaynar gözlərində duyğu, məhəbbət.
Yaz ömrün açılmış çiçəyə bənzər,
O çiçək ətrinlə gələrsən, əlbət.

Çılğınlıq nə yaman yaraşır sənə,
Varlığın qəlbimdə kövrək hisslərim.
Sən mənim ömrümə əsən sərin meh,
Sən yolsan dikilər sənə gözlərim.

Mən kiməm, qarşında aciz bir qulun,
Verdiyin əzablar şirin məlhəmim.
Öl desən ölərəm, qurbanın olum,
Bir onu bilirəm mənimsən, mənim.

## GÖYLƏRDƏ GÖRÜN

*(Qardaşım Səməd Qaraçöpə ithaf olunur)*

Bilmirəm dirisən, ya ki, ölüsən,
Səni diri-diri ağlayıram mən.
Bu fani dünyada görəcəyin çox,
İzin ulduzlarda, haylayıram mən.

Özünə göz verib, işıq vermədin,
Yerlərin çəkilməz zülməti səndə.
Daşı da göynədir ahın, amanın,
Vuran ürəkdimi yanan sinəndə.

Halım haldan çıxıb, dəliyəm nədi?
Yerimdən didərgin, hardayam görən
Dünyaya sığmayan yetim qəmindi,
Yerlər yerin deyil, göylərdə görün.

# KÖZƏRƏN DEYİL

Zor gəlir yaşamaq mənə ay Allah!
Bu fani dünyadan küskün düşmüşəm.
Arzular düyündə, bir kor yolçuyam,
Nələrdən, nələrdən mən ötüşmüşəm.

Qəlbimin baharı, yazı yox daha,
Qışın şaxtasında donur ürəyim.
Gözümdən çəkilib gecə yuxum da,
Bu ağır günümdə sənsən gərəyim.

Yox, gələn deyilsən, bilirəm bunu,
Həsrətin yolları tükənən deyil.
Çiçəyəm, bükmüşəm sənsiz boynumu,
Sovrulub ocağım, közərən deyil.

## KÖVRƏYƏM İNDİ

Bilirsən, nə yaman kövrəyəm indi,
Təklənib qalmışam, bu yer üzündə.
Elə bil dünyanın dərdi mənimdi,
Qəmlər damla-damla sızır sözümdən.

Nə yaxşı varlığın məni tərk etmir,
Ölən ruhun deyil, cismindi canım.
O günlər bir an da, gözümdən getmir,
Könlümü soyudur bu həyəcanım.

Bilirsən nə yaman kövrəyəm indi,
Sən bir anla bunu, sən bir duy bunu.
Bu günüm eləcə qara geyinib,
Bu günüm dəyişib əlvan donunu.

## SƏNSİZ KEÇƏCƏK

Səni ürəyimdən siləcəm daha,
Ağrılı ömrümün ağır yüküsən.
Dünyanı pərən-pərən, dağılıb Allah!
De haçan uçurub, onu sökmüsən.

Həsrətin əlində acizəm, nədir?
Yoxluğun bu günə qənim kəsilib.
Məni itirirsən, de, sözün nədir?
Gəlməyə üzün yox, yolun kəsilib.

Ömrümün saralmış payızındayam,
Gözümdə nə bahar, nə gül, nə çiçək.
O keçən günlərin harayındayam,
Elə bu günüm də sənsiz keçəcək.

## BU GÜNÜM NƏSDƏDİ

Mənim gözlərimdə bir qəm havası,
Sənin gözlərində həsrət, duman, çən.
Köməyim olacaq allah duası,
İlahi, mənəmmi dünyadan köçən.

Yer üzü dadıma çatan deyil ki,
Başımın üstündə mələklərə bax.
Həsrətin çəkdiyim elə deyir ki,
Ətini ver mənə, gəl, göylərə qalx.

Haqsızlıq içində batıb qalmışam,
Nə deyim dünyaya xor baxanlara.
Bu günüm nəsdədi, dala qalmışam,
Haydı, haya gəlin, ay yaxınlarım.

## SƏNSİZ QALACAQ

Sənin gözlərində hicran yağışı,
Günahım böyükdü, bilirəm bunu.
Başımın üstündə kimin qarğışı,
Mənim qismətimin payı budumu.

Qəribo haldayam, duyan da yoxdu,
Könlümün nəğməsi susub elo bil.
Səni itirməkdi ən böyük qorxura,
İtirsəm susacaq, lal olacaq dil.

Bu geniş dünyada yaman daraldım,
Gözlərim yoluna bir iz salacaq.
Arzular, istəklər hələ yarıda,
Dünyam yetimləşib sənsiz qalacaq.

## SƏNSİZƏM

Sənin gözlərində ayrılıq dəmi,
Nurlu baxışların dumana düşüb.
O keçən günlərin həsrətindəyəm,
İlahi, soyuqluq nə yaman düşüb.

Bu günün yaralı çağındayam mən,
Yoxluğun qəlbimi qana döndərir.
Ağrılar, acılar  yol yoldaşımdı,
Bu yollar izimi hara göndərir.

Sənsizəm bu haylı, küylü günlərdə,
Qismətin əlində nələr varıymış.
Nağıllı-noğullu şəkər dünyanın,
Bir üzü cadugər, iblis qarıymış.

## KÖMƏYİN GƏRƏK

Bu gecə ürəyim darıxır yaman,
Bu gecə başımı alıb çən, duman,
Bu gecə tək-tənha mənəmmi qalan,
İlahi, köməyin, köməyin gərək.

Ulduzlar başımı qatan ki deyil,
Ay da məni gorüb, batan ki, deyil,
Gecəm də yuxusuz yatan ki, deyil,
İlahi, köməyin, köməyin gərək.

Səssizlik içində batıb qalmışam,
Ürəyim ağrılı, yaralanmışam,
Nağıllı dünyamda onu anmışam,
İlahi, köməyin, köməyin gərək.

Ağrımı, acımı duyan kim görən?
Bu yerdən üzülüb, göyə köçürəm,
Yolumu, izimi kimdi köçürən,
İlahi, köməyin, köməyin gərək.

## NƏ DEYİM

Nə deyim, nə deyim, söz də tapmıram,
Yalanlar içində batib qalmışam.
Dünyaya baxmağa göz də tapmıram,
İlahi, özümü qaralamışam.

Könlümün sevgisi dağım-dağımdı,
Üzümə duran var, ağ yalan kimi.
Ürəyimdəki yük ağrılarımdı,
O dolur, yenidən boşatan kimi.

O keçən günlərim nə yaman ucuz,
Ömrümün vəfası yoxuymuş demə.
Gör necə tuşlanıb kor olmuş gözü,
Şərin əllərində, oxuymuş demə.

## QINAMAYIN

Qınamayın siz məni,
Gözlərim yaşla dolub;
Necə edim gizlənim,
Ağlamaq peşəm olub.

Yox, deməyin zəifəm,
Vallah gücüm nər gücü.
Mat qalmışam zamana,
Sıxmalanıb ər gücü.

Üstümə qoşun gəlir,
Aman Allah, işə bax.
Çaqqal-çuqqal şığıyır,
İtilənmiş dişə bax.

Yox, əyilən deyiləm,
Əyilməzəm, bilirəm.
Razıyam ölüb, ölüb,
Mən yenidən diriləm.

## RUHUM QAPANIB

İçimdə bir boşluq meydan oxuyur,
Varımnan, yoxumnan olmuşam demə.
İnsan var şeytannan daha qorxulu,
Ömrü tamamlanmış yolmuşam demə.

Doğmalar yadlaşıb, üzlər bozarıb,
Sən demə, o günlər yuxuymuş, yuxu.
Görən bu dünyanın nədi azarı,
İlahi, yaxınlar daha qorxulu.

O hörmət, o izzət itib arada,
Ağbirçək kəlməsi allahsız qalıb.
Daha dözəmmirəm, məni yaradan,
Dizlərim bükülüb, ruhum qapanıb.

## YUXUYMUŞ DEMƏ

Ömrümün payızı sona yetibdi,
Ömrümün payızı qış harayında.
Xatirə düyünü düyünlənibdi,
Mənəm bu illərin yaş sarayında.

Necə də ötüşdü, keçdi o günlər,
Şirinlik duymamış, acısı qaldı.
Qismətin əliylə bəxti kəm oldum,
Könlümdə qamçının acısı qaldı.

Yoxsa gördüklərim yuxuymuş elə,
Yuxular içində batıb qalmışam.
O günlər, o günlər yoxuymuş demə,
Daha oyadan yox, yatıb qalmışam.

## İLAHİ, KÖMƏK OL

Mən özüm-özümə düşmən kəsildim,
Gör kimlər durubdu üzümə qarşı.
Bu nə insanlıqdı, bu nə nəsildi?
Tutmazmı onları tanrı qarğışı.

İnsan var nəfsinə güc gələ bilmir,
Onu da, bunu da qamarlamaqda.
Kəsdiyi çörəyə haram qatıbmış,
Şərin əməlini tumarlamaqda.

Kələfin ucunu tutan yox daha,
Bu dünya çaşıbdı, zillətə bir bax.
Qardaş qardaşını çəkir çarmıxa,
İlahi, kömək ol. qeyrətə bir bax.

## SƏN BAXDIN

Sən mənim gözümdə cavandan, cavan,
Sən mənim gözümdə mələksən gülüm.
Demə ki, nə vaxtsa qocalacaqsan,
Ay mənim həyatım, ay ömrüm günüm.

Gözümdə eşqindi, nura çevrilib.
Ağarmış saçında əlimin izi.
Alnının qırışı qorxutmur məni,
Nəfəsin isidir qəlblərimizi.

Hər anım, hər günüm aya bərabər,
Dünyamız duyğulu, şip-şirin baldı.
Günlər görəcəyik hələ nə qədər,
Sən baxdın, mən isə qadanı aldım.

## MƏN DƏ BELƏYƏM

Ağrılı günlərim hələ qabaqda,
Sənli günlərimin həsrətindəyəm;
Bu dünya, yamanca oynadır məni,
Cəhənnəm odunun lap bətnindəyəm.

Bir kimsə tapmıram ovuda məni,
Gözlərim yoldadı, qulağım səsdə.
Çıxarın, çıxarın quyudan məni,
Vallaş təntiyirəm, bu dar qəfəsdə.

Susmuşam, canım yox, sal daşammı mən,
Yerimdən dəbərib gedən deyiləm.
O qərib dağlara yoldaşammı mən,
Əyilən deyiləm, mən də beləyəm.

## SƏN GƏLDİN

Sənsiz yollarımda həsrətin izi,
Bu sevda bölübdü tən, qəlbimizi,
Eləcə gəzirik bir-birimizi,
Eşqinə bələnib, alışdım, yandım.

Varlığın ömrümün şahıdı, şahı,
Yoxsansa neylərəm mən yaşamağı,
Necə də al-əlvan bu göy qurşağı,
Gördüm, yatmış idim, indi oyandım.

Mələksən, gəlmisən gözlərim aydın,
Söylə mənim gülüm, söylə hardaydın?
Gəldiyin yollara qurban olaydım,
Güllər dağ döşündən aşıb, boylandı.

## TANRIM, QINAMA MƏNİ

Tanrım, qınama məni,
Mən də belə doğuldum.
Haqsızlığın içindən,
Çıxammadım, boğuldum.

Nə vaxt yadımda deyil,
Ayaq tutub, gəzdiyim.
O vaxtlar ölü deyil,
O vaxtlar mən diriydim.

Haqqın dargahında mən,
Diz çöküb, baş əyirəm.
Qəlbimin ağrıların
Bircə ona deyirəm.

İnamım içimdədi,
İmanım əl ağacım.
Ruhumun təntənəsi,
Sönməz odum-ocağım.

## İLAHİLƏR

İlahilər oxunur;
İlahilər ruhumdu.
Başım üstə tanrımla,
Aramızda sorğumdu.

İlahilər saflığım,
İçimdə varım mənim.
O dünyaya üz tutan,
Görünməz yarım mənim.

İlahilər dünyamın,
Al-əlvan çələngidi.
Dərgahımın yolunda,
Haqq deyilən incidi.

## İLHAM PƏRİM

Gəl,
yağışın altındaca
qoşalaşaq.
Yağış yağsın.
Biz də elə
yaşıllaşaq.
Bax beləcə,
Pöhrələnsin
içimizdə,
min arzular.
İstəklərim
göyə qalxsın,
qatar-qatar.
Çiçəklənsin
yol-yolağa.
Nəğmə deyim
bənövşəyə,
buz bulağa.
Arzlarım qanadlansın
göy üzündə.
Ulduzlardan
saray qurum.
Pərvazlanım,
pərvazlanım
göy üzündə.

## DİLLƏNİR

Bu çəmən, bu düz mənim,
Gül açıb yasəmənim,
Mən sənin, sənsə mənim,
Varsan, qəlb təzələnir.

Arzular pərdə-pərdə,
Nələr qaldı geridə,
Əlvanlaşıb göy, yer də,
Könlümdən söz ələnir.

Ürəyimdə təzə-tər,
Naxış-naxış söz gəzər,
Əlim yerdən üzülər,
Nəğməm göydə dillənir.

## DÖRDLÜKLƏR

Gecə düşüb, göydə ay da görünmür,
Zülmət gecə ruhuma vay tutacaq.
Tək-tənhayam, qulaqlarım səsdədi,
Bu səssizlik Öz bağrımı yaracaq.

***

Bu günlər ömrümün xəzan çələngi,
Bu günlər ömrümə yazılmasın heç.
Gör necə düşmüşəm nəs imtahana,
Cavabın tapmıram, günahımdan keç.

***

Ürəyim təntiyir, söz də tapmıram,
Ay allah, insanlar çaşıb deyəsən.
Dağlara baxan yox, dağlar sınıxıb,
Nadanlar düzləri aşıb, deyəsən.

***

Heyim də qalmayıb söz güləşdirəm,
Ağrılar canıma vay tutur Allah!
Yerdən üzülmüşəm, tanrıma yaxın,
Uzalı əlimi ay tutur, Allah.

***

Ay yazıq, nəfsinin köləsi olma,
Şöhrətin, həsədin qulu olarsan.
Bu dünya üzünə nadan gəlmisən,
Elə ömürlük də nadan qalarsan.

***

Ağrılar canımı candan ayırır,
Ağrılar nəğməmi qana döndərir.
Bu zalım dünyanın dustağı mənəm,
Göran mən yazığı hara göndərir?

***

Gecə rübəndini çəkdi üzünə,
Gecə, ürəyimin köz yarasıdı.
Ay düşüb nəğməmin qanadlarına,
Yazdığım hər kəlməm, söz qalasıdı.

***

Yaralı bir quşam, qəlbim qırılıb,
Bir kövrak nəğməmin vurğunuyam mən.
Bir sirdaş istərəm ovuda məni,
Bu zalım dünyanın yorğunuyam mən.

***

Göy də dumanlanıb, yağmura bir bax,
Bu payız havası nəm içindədir.
Yarpaqlar göz yaşı, ağacdan qopur,
Mənim tək kövrəlib, qəm içindədir.

***

Bir tənha nəğmənin sahibi mənəm,
Könlüm də qövr edir qəm havasıyla.
Vüsalın dəminə çata bilmirəm,
Yoldayam, ömrümün sərt qovğasıyla.

***

Təklənib qalmışam dünyadan yenə,
Ruhuma qapanıb özümləyəm mən.
Cənnətə düşmüşəm, bihuş olmuşam,
Könlümün nəğməsin düzümləyən mən.

***

Yolum haqq yoludu, haqqı araram,
Qəlbimin çırağı yol-yoldaşımdı.
Gəzdiyim dünyamdı göyün üzündə,
Dünyam öz varımdı, öz sirdaşımdı.

***

Ürəyim doludu qürbətdəyəm mən,
Qəlbimdə Vətənin dadı, tamı var.
Arzular yaramın şirin məlhəmi,
Çapmağa ay ellər, murad atım var.

***

Dağlar aşıb, hüzuruna gələcəm,
İnamım sən, ruhum, canım, əfəndim.
Ölüm nədi, ölməzliyin yanında,
Ölsən belə, ölməz canın əfəndim.

***

Dilimə dolamaq istəmirəm mən,
Ölüm kəlməsinin yükü ağırdı.
Qarşında qulunam, bağışla məni,
Əfəndim, göydənmi məni çağırdın?

***

***

Bürhan babam "hu" dedi,
Bu yol uzundu, dedi,
Axirətdə, nəfsinlə,
Gözlərini yum, dedi.

***

Aman dünya, mənə yaman toy tutdun,
Günahım nə, hələ də baş açmıram.
Bu qismət də tanrımın öz payıdı,
Bu yol mənim, vallah çaşıb qaçmıram.

***

Ayrıla bilmirəm xatirələrdən,
Ayrıla bilmirəm, bu necə işdi.
O keçən günlərim qayıdan deyil,
Ömrümə bir anlıq elə, gəlmişdi.

***

Yaman sənsizləyib qalmışam gülüm,
Sənsiz bu günlərin tamı dəyişib.
Sənli günlərimin bəxtəvər çağı,
Ötübdü, sən yoxsan, hamı dəyişib.

***

Ürəyim az qala çıxa yerindən,
Tənhayam, tənhalıq qorxudur məni.
Bu dünya bir oyun, çaşıb qalmışam,
Bəlkə gördüklərim yuxudu, nədi?

***

Səndən ürək sınıb, çilik-çilikdi,
Qurama ürəyi neynirsən gülüm.
Dünya arzularım eh... keçilibdi
Elə bildiyini deyirsən, gülüm.

***

Günəşin telləri nur çiləməkdə,
Yazm nəfəsidi dəyir üzümə.
Gül-çiçək yaraşır bu düzənlərə,
Al-əlvan rəng verir, hər bir sözümə.

***

Ovqatım pərişan, könlüm kövrəlib,
Tək-tənha, qəribəm dünya üzündə.
Qınayan olmasın mənim halımı,
yaman cılızlaşıb hər yan gözümdə.

***

Tənhalıq havası içimdə mənim,
Zamana nə deyim, duyan deyil ki.
Əzəldən kədər də, qəm də həmdəmim,
Beləcə gətirib neynim, mənimki.

***

Qəm mənim qismətim, qəm taleyimdi,
Qəm mənim ömrümə yağı kəsilib.
İllər elə ötüb, heç bilməmişəm,
Haraya yan alıb, harda kəsilib.

***

Baş alıb gedirəm, zalım dünyadan,
Nə duyan, anlayan var məni, Allah.
Dərdim elə böyük, ürəyə sığmır,
Sən mənə kömək ol, kömək ol, Allah!

***

Ürəyimdən daş asılıb, yüküm çox,
Yoxsa tanrım üz döndərib, neyləyim.
Gedən getdi, dərdin mənə yükləyib,
A yolçular, o gedəni əyləyin.

***

Daş olaydım, günahım nə, bilmirəm,
Bu ürəyə yiyə duran deyiləm.
Ağlamaqdan qəlpə-qəlpə sınmışam,
Ağlamaram, mən də belə dəliyəm.

## BAYATILAR

Əzizim odda məni,
Tut oda, odda məni,
Üzüm üzlər görübdü,
Taparsan yadda məni.

***

Əzizim yetim-yetim,
Qalmışam yetim, yetim,
Doğmalar üz döndərib,
Hara yox olub itim.

***

Əzizim daşda məni,
Eləcə daşda məni,
Bəxtikəmlər içində,
Oturdun başda məni.

***

Əzizim gəlin, gəlin,
Haraya gəlin, gəlin,
Günah kimin günahı,
Qaynana, ya da gəlin.

***

Girdaba düşən manəm,
Qəmlə ötüşən mənəm,
Vay fələk, belin sınsın,
Sənlə görüşən mənəm.

***

Əzizim oğul dağı,
Çəkmişəm oğul dağı,
Hayına hay verən yox,
Yamanmış oğul dağı.

# KİTABIN İÇİNDƏKİLƏR

Kövrək duyğular, zərif hisslər…………………………....3
Təmızlik və gözəllik poeziyası………………………...5
Ləyaqətli qadın, gözəl şair ………………………………9

## ARXAM OL VƏTƏN

Vətən……………………………………………………14
Vətəni sevin……………………………………………..15
Məni qorxudan…………………………………………16
A çadır şəhərciyim……………………………………18
Qaçqınam……………………………………………...19
Qəm görürəm…………………………………………20
Nigaran gedirəm……………………………………...21
Bu gecə…………………………………………………22
Köçən deyiləm………………………………………..24
Qaçacağam ……………………………………………...25
Bu gecə…………………………………………………26
Sözüm dən-dən…………………………………………27
Dünyam mənim…………………………………………29
İstanbulum………………………………………………30
Qəriblikdə……………………………………………….31
Mərmərə dənizi…………………………………………32
Xlor var, xlor……………………………………………33
Ay Nəsimi……………………………………………….35
Vətənsiz…………………………………………………36
Kövrəldim………………………………………………37
Bu dünya………………………………………………...38
Aranızdan köçən mənəm……………………………..39

## EY... QƏLBİMƏ DƏYMƏYİN

İtib mizan-tərəzi.......................................40
Dərgahına gəlmişəm.....................................42
Yalanıymış.............................................44
Dözüm də mənim.........................................45
Bu gecə................................................46
Məni dindirən olmasın..................................47
Gəl, oğlum.............................................48
Bu gün zikr eləmək düşüb könlümə.......................49
Tanrını, hünər ver mənə................................50
Bu gündən..............................................51
Ac dünyada tox mənəm...................................53
Ölən var...............................................54
Mən gedirəm ölməyə.....................................55
Yoxuymuşam.............................................56
Mən yorulmuşam.........................................57
Üzüm o yanadı..........................................58
Bu günə dəymə..........................................59
Göylərdən baxacam......................................60
Tənhalıq...............................................61
Ay Allah...............................................63
Oyunçu deyilən.........................................64
Göy üzündə.............................................65
Küskünəm...............................................67
Qoruyacam mən..........................................68
Bu ömür ötər...........................................69
Dərd içində üzəm, üzəm.................................70
Ramazan................................................71
Əfəndim................................................72

**ƏSRİ YARILAMIŞAM**

Əsri yarılamışam…………………………………..76
Heç şair olmamışa…………………………………77
Nəzrinim……………………………………………...79
Öz baxışın var………………………………………...80
Qədəmin mübarək…………………………………81
Könlümün nəğməsiyəm……………………………82
Bu da qismətimiz…………………………………..83
Bənövşəm……………………………………………85
Qəmdən biçib………………………………………...86
Bu harasıdı…………………………………………87
Kilidini açmıram…………………………………88
İnsanları sevərdim…………………………………89
Bəs niyə inciyik……………………………………91
Gələsi deyil…………………………………………...92
İstəsə………………………………………………….93
Bu payız………………………………………………94
Nə yaxşı………………………………………………95
Sev mən……………………………………………….96
Ağırdı mənə…………………………………………..97
Məni küsdürmə……………………………………….98
Sevgimiz……………………………………………...99
Dünyadan itmişəm…………………………………..100
Qorxudur məni……………………………………...101
Sən yoxsan…………………………………………..102
Günahkar özüməm…………………………………103
Dünya sənə dar gəlir………………………………...104
Barışan deyil………………………………………...105
Sənsiz…………………………………………………..106
Belə dərd olmazdı…………………………………...107
Yarın yaman dil açıb…………………………….....108
Gəl görüşək…………………………………………109

Səsimə səs ver, gəl……………………………..110
Qəmim ələnəsi………………………………111
Küsmüşəm…………………………………..112
Ölmüşük gülüm……………………………..113
Bu yer üzündə………………………………114
Sənsizləmişəm………………………………115
Dərdimi deyəcəyə………………………......116
Səni kimdən sorum…………………………117
Mənimsən, mənim ……………………….....118
Göylərdə görün……………………………...119
Közərən deyil……………………………….120
Kövrəyəm indi………………………………121
Sənsiz keçəcək………………………………122
Bu günüm nəsdədi…………………………..123
Sənsiz qalacaq………………………………124
Sənsizə………………………………………125
Köməyin gərək……………………………...126
Nə deyim…………………………………...127
Qınamayın…………………………………..128
Ruhum qapanıb……………………………...129
Yuxuymuş demə…………………………….130
İlahi, kömək ol………………………………131
Sən baxdın…………………………………..132
Mən də beləyəm…………………………….133
Sən gəldin…………………………………...134
Tanrım, qınama məni……………………….135
İlahilər……………………………………….136
İlham pərim………………………………….137
Dillənir……………………………………….138
Dördlüklər…………………………………..139
Bayatılar……………………………………..145

**FƏRİDƏ HACIYEVA**
**(*Fəridə Məcid qızı Hacıyeva*)**
**GÖYLƏR PƏNAHIM MƏNİM**
Bakı, "ADİLOĞLU" nəşriyyatı - 2003, 152 səh,

| | |
|---|---|
| Bilgisayar tərtibatçısı | **Mehdi İsgəndərov** |
| Dizayner: | Azər Həsənov |
| Yığıcı: | Elmira Nəsirova |
| Yğılmağa verilmişdir: | 10.12.2002 |
| Çapa imzalanmışdır: | 15.01.2003 |
| Kağız formatı: | 84x108 1/32 |
| Hesab-nəşriyyat həcmi: | 4-75 ç.v. |
| Sayı; | 500 nüsxə |
| Sifariş: | 15 |

Kitab **"ADİLOĞLU" MMC**-nin mətbəəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.

**Ünvan: Bakı şəh., Ü.Hacıbəyov küç. 38/3,**
**Tel.: 98-68-25**
E-mail: adiloglu @azeronline.com


Ruhum yenə bu gecənin qonağı,
Tənhalığın bağrı, dağım-dağımdı.
Yolum uzun, yol gedirəm bu gecə,
Ulduzlar da pərən düşüb dağıldı.
F. Hacıyeva
ADİLOĞLU